AZƏRBAYCAN www.azerbaijan-news.az

# CBC telekanalı Oleq Babak haqqında film çəkib

CBC telekanalının yaradıcı heyəti bu günlərdə izləyicilərə yeni sənədli film təqdim edəcək. "Həyat naminə" adlı bu sənədli ekran işi 1991-ci il aprelin 7-də Qubadlı rayonunun Yuxarı Cibikli kəndində baş verən hadisələrdən bəhs edir.




CBC telekanalının baş direktoru Azər Xəlilov eksklüziv müsahibəsində filmin ərsəyə gəlməsindən danışıb.

A.Xəlilov bildirib ki, bu film keçmiş SSRİ-nin daxili qoşunlarının zabiti Oleq Babakın qəhrəmanlığından bəhs edir. O, 1990-cı illərdə Qubadlı rayonunun Yuxarı Cibikli kəndində baş verən hadisələrdə yüzlərlə erməni döyüşçüsünə qarşı şücaətlə vuruşaraq həyatı bahasına yerli dinc əhalini ölümdən xilas edib: "Oleq Babak Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin dinc əhalisinin erməni terrorçularının hücumundan qorunması və onların həyatlarının xilas edilməsi zamanı şəhid olub. Oleq Babak bu şücaətinə və qəhrəmancasına apardığı döyüşə görə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb".

Filmin o illərin tarixinə qiyabi səyahət olduğunu bildirən CBC-nin baş direktoru deyib ki, hələ 1990-cı illərin əvvəllərində Ermənistanla həmsərhəd rayonlarımız mütəmadi olaraq atəşə tutulurdu: "Ermənilər azərbaycanlı əhalini daim qorxu altında saxlayaraq, onları öz ata-baba yurdlarını, el-obalarını tərk etməyə vadar edirdilər ki, qəsbkar planları asanlıqla həyata keçsin. Oleq Babak yerli əhalinin müdafiəsinə qalxaraq, erməni millətçilərinin planlarının qarşısına sanki sipər çəkdi. O, öz həyatı hesabına dinc sakinləri erməni terrorçularından xilas etdi".

A.Xəlilov qeyd edib ki, həm yerli telekanallar, həm də Rusiya və Ukrayna kanalları Oleq Babakdan bəhs edən sənədli filmlər çəkib. CBC-nin təqdim edəcəyi bu yeni film isə digərlərindən çox fərqlənir: "Biz bu filmdə hadisələrə bir qədər fərqli bucaqdan yanaşmağa çalışdıq. İlk dəfə olaraq Oleq Babakın döyüş yoldaşları ilə görüşdük. Bunun üçün bizim yaradıcı qrup iki hissəyə bölünmüşdü. Qrupun biri Moskva şəhərinə göndərildi ki, orada Oleq Babakın döyüş yoldaşları ilə görüşsün. Digər qrup isə Ukraynaya, Oleq Babakın anadan olduğu Viktoriya kəndinə ezam edildi. Onlar orada Oleq Babakın valideynləri ilə görüşdülər".

Ssenarinin yazılması və filmin çəkiliş prosesinin bir aya yaxın vaxt aldığını bildirən A.Xəlilov deyib: "Yaradıcı heyət Azərbaycan, Rusiya və Ukraynada gərgin iş rejimində çalışıb. Sənədli filmin xronometrajı 30 dəqiqədir. Ssenari, rejissorluq və müəlliflik hüququ CBC-nin yaradıcı heyətinə məxsusdur. Filmin hazırlanmasında göstərdikləri dəstəyə görə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Azərbaycan və rus dillərində yayımlanacaq "Həyat naminə" filmi iki həftədən sonra ekranlara çıxacaq".

**AZƏRTAC**